# AZƏRBAYCAN

Konstitusiya və qanunda müəyyən məhdudiyyətlər olmaqla din azadlığı təmin edilir. 2009-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklər və qəbul edilmiş digər qanunvericilik aktları dini davranışla bağlı məhdudiyyətləri artırmış və dini qruplar üçün yeni qeydiyyat tələbləri əlavə etmişdir. 2009-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklər xaricilər tərəfindən dinin təbliğ olunmasını məhdudlaşdırmış və bundan sonrakı qanunvericilik İslam ayinlərini aparanların ölkədə təhsil almış vətəndaşlardan olmasını tələb etmişdir. 2009-cu ildə Milli Məclis tərəfindən qəbul edilmiş əlavə qanunvericilik aktları bütün dini icmaların 2010-cu ilin yanvarında yenidən qeydiyyatdan keçməsini tələb edirdi və bu, bir çox dini icmalar üçün qeydiyyat problemləri ilə nəticələndi.

Hesabat dövründə hökumət tərəfindən dini azadlığa riayət olunmasında ümumi dəyişiklik olmamışdır. Bəzi hallarda hökumət din azadlığını məhdudlaşdırmağa davam etmişdir. Hökumət bəzi qeydiyyata alınmamış müsəlman və xristian qruplarının fəaliyyətinə məhdudiyyətlər qoymuşdur və yerli rəsmilərin bəzi üzvlərin və icmaların hüquqlarını məhdudlaşdırması ilə bağlı məlumatlar olmuşdur. Bir çox dini qruplar hökumətin müdaxiləsi olmadan toplaşmışdır; amma yerli hakimiyyət nümayəndələri tərəfindən bəzi dini fəaliyyətlərin monitorinqinin aparılması və İslam və "qeyri-ənənəvi" dini qrupların üzvlərinə qarşı təqib və saxlanma halları ilə bağlı məlumat daxil olmuşdur. Mərkəzi və yerli hakimiyyət tərəfindən Yehova Şahidləri və yevangelist protestant qruplarına bir neçə reyd edilmişdir. Federal və yerli rəsmilər tərəfindən monitorinqlə, habelə rəsmilərin "qeyri-ənənəvi" hesab etdiyi həm İslam, həm də xristian qruplarının təqibi və saxlanması ilə bağlı məlumatlar olmuşdur. Həmçinin başlıca olaraq yerli hakimiyyət orqanları tərəfindən dini inanclarına görə ibadət edən insanlara qarşı ayrı-seçkilik, onların heç bir hüquqi əsas olmadan saxlanılması, sorğu-sual olunması və dini materialların müsadirə olunması barədə məlumat daxil olmuşdur.

Dini mənsubiyyət, etiqad yaxud ibadətinə görə ictimai ayrı-seçkiliklə bağlı ayrı-ayrı məlumatlar olmuşdur. Dinlərini dəyişmiş müsəlmanlara qarşı bəzi qərəzlə bağlı məlumatlar olmuşdur və dini etiqadlarını dəyişmiş qruplar, xüsusilə Yehovanın Şahidləri, Yevanqelist xristianlar və digər missioner qruplara qarşı bəzən düşmənçilik münasibəti olmuşdur.

ABŞ hökuməti insan haqlarının təbliğ və müdafiə edilməsi yolundakı ümumi

siyasətinin tərkib hissəsi olaraq hökumətlərlə dini azadlıq məsələlərini müzakirə edir. Hesabat dövründə ABŞ səfirliyinin rəsmiləri qeydiyyat prosesinin və "qeyri-ənənəvi" dini qruplara rəsmi münasibətlə bağlı narahatlıqlarını və dini ədəbiyyatla bağlı senzuraya etirazlarını hökumətin diqqətinə çatdırmışlar.

Bölmə I. Dini demoqrafiya

Ölkənin ərazisi 33,774 kvadrat mildir, əhalisinin sayı doqquz milyon nəfərdir. Konkret dini qruplara üzvlük barədə heç bir etibarlı statistika yoxdur; amma rəsmi məlumatlara görə əhalinin təxminən 96%-i müsəlmanlardan ibarətdir. Əhalinin qalan hissəsi əsas etibarilə rus pravoslavlardan, erməni qriqoryanlardan, digər xristian qruplarının üzvlərindən , yəhudilərdən və ateistlərdən ibarətdir.

Müsəlmanların əksəriyyətinin arasında dini ayinlərə əməl olunması səviyyəsi kifayət qədər aşağıdır və müsəlman mənsubiyyəti dindən daha çox mədəniyyət və milliyyətlə bağlıdır, lakin etiqad edən müsəlmanların sayı tədricən artmışdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) verdiyi məlumatlara görə müsəlman əhalisinin 65 faizi Şiə, 35 faizi isə Sünnilərdir; ənənəvi olaraq kəskin fərqlər müəyyən edilməmişdir.

Xristianların böyük əksəriyyəti Rus Pravoslavlarıdır ki, onların da kimliyi, müsəlmanlar kimi, dinə olduğu qədər mədəniyyətə və etnik mənsubiyyətə əsaslanır. Xristianlar Bakı və bir sıra digər şəhərlərdə cəm halında yaşayırlar.

Ölkənin 20000 nəfərlik yəhudi icmasının böyük hissəsi Bakıda yaşayır. Qubada və başqa ərazilərdə də kiçik icmalar mövcuddur.

Şiələr, Sünnilər, Rus Pravoslavları və Yəhudilər ölkənin ənənəvi dini qrupları hesab olunurlar. Lüteranların, Roma Katoliklərinin, Baptistlərin, Molokanların (köhnə Rus Pravoslav təriqətçiləri) , Yeddinci Günün Adventistlərinin və Bəhailərin kiçik icmaları ölkədə yüz ildən artıqdır ki mövcuddur.

1991-ci ildə müstəqillik əldə edildikdən bəri "Vəhhabi" və Sələfi müsəlmanlar, Əllincilər və digər Yevangelist xristianlar, o cümlədən Yehova Şahidləri və Hari Krişna kimi hökumətin əcnəbi və ya "qeyri-ənənəvi" icma kimi hesab etdiyi dini qruplar yaranmışdır. Bakıda kifayət qədər əcnəbi xristian icmaları vardır.

Bölmə II. Hökumətin Din azadlığına riayət etməsinin vəziyyəti

Hüquqi/Siyasi Çərçivə

Konstitusiyaya əsasən bütün dinlərdən olan insanların öz dinlərini sərbəst seçmək və ona ibadət etmək hüququ vardır. Qanun bu hüququ həm hökumət tərəfindən , həm də fərdi şəkildə pozulmasından qoruyur. 2009-ci ildə Konstitusiyaya edilmiş dəyişikliklər və qəbul edilmiş Dini Azadlıq haqqında Qanun "Insanların şərəf və ləyaqətini alçaldan və humanizm prinsiplərinə zidd olan dinin (dini hərəkatların) yayılması və təbliğ edilməsini" qadağan edir. Digər bölmədə deyilir ki, "Heç kim öz dini inancını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini ritualları yerinə yetirməyə və dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz."

Qanuna edilmiş dəyişikliklər DQİDK-nı belə bir bəyanat verməyə təşviq etdi ki, bütün dini qurumlar 2010-cu ilin yanvarınadək yenidən qeydiyyatdan keçməlidirlər və qeydiyyat üçün əlavə tələblər olacaqdır. Çoxsaylı ənənəvi İslam və bir neçə qeyri-İslam qrupları qeydiyyata alınsa da, bir çox qrupların qeydiyyata alınmasından imtina edilmişdir yaxud qeydiyyatla bağlı müraciətləri üzrə məhkəmə qərarını gözləməkdədirlər. Qanun hökumətin qeydiyyat müraciətlərinin daxil olmasından sonrakı 30 gün ərzində baxılmasını tələb etsə də qeyri-müəyyən, yorucu və şəffaf olmayan qeydiyyat prosedurları müşahidə edilməkdədir.

30 iyun 2009-cu il tarixdə Milli Məclis Dini Azadlıq haqqında Qanuna edilmiş dəyişiklikləri təsdiq etmiş və bilavasitə bundan sonra Prezident tərəfindən qanun şəklində imzalanmışdır. Maddə 21-də qeyd edilir ki, "İslam dini ayinləri yalnız Azərbaycan Respublikasında təhsil almış Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər."

Konstitusiyaya görə, insanların dini mənsubiyyətini və etiqadlarını (o cümlədən ateizm) seçmək və dəyişmək, seçdikləri dini qruplara qoşulmaq yaxud yaratmaq, öz dini etiqadını, əgər bu etiqad kiminsə öz etiqadını başqa fərdlərlə bölüşməyi tələb etmirsə, yerinə yetirmək hüququ vardır. Dini etiqad azadlığı haqqında qanun hökumətin hər hansı şəxsin və ya qrupun dini fəaliyyətinə müdaxilə etməsini açıq şəkildə qadağan edir; buna baxmayaraq, dini qrupun fəaliyyəti "ictimai asayişi və sabitliyi pozduğu" halları ehtiva edən müstəsna hallar vardır.

Bir sıra qanuni müddəalar hökumətin dini qrupları tənzimləməsinə imkan verir, məsələn, dini azadlıq haqqında qanunun tələbi dini təşkilatların, o cümlədən bir məzhəbin ayrı-ayrı icmalarının hökumət qeydiyyatından keçməsini tələb edir. Qeydiyyat dini təşkilata bank hesabı açmağa, əmlakı icarəyə götürməyə və ümumiyyətlə hüquqi şəxs kimi çıxış etməyə imkan verir. Təcrübədə bəzi qruplar qeydiyyatdan keçmədən ibadət etdiklərinə görə hökumətin reydlərinə məruz

qalmışlar.

Dini qruplar mütləq DQİDK-da qeydiyyatdan keçməlidirlər. DQİDK qeydiyyat və dini ədəbiyyatın nəşri, idxalı və yayılması üzərində çox geniş səlahiyyətlərə malikdir. Öz növbəsində isə DQİDK qəbul edir ki, qanunu pozduğu iddia edilən dini qrupların fəaliyyətini dayandırmaq üçün o, ilk növbədə məhkəmə sisteminə müraciət etməlidir. Dini qrupların qeydiyyat ərizəsinin rədd edilməsindən apellyasiya şikayəti vermək hüququ vardır.

Dini qruplar qeydiyyatdan imtina halları ilə bağlı məhkəmələrə müraciət edə bilərlər. Qruplar həmçinin öz işlərinə hüquqi qiymət verilməsini Avrop İnsan Hüquqları Məhkəməsində (AİHM) tələb etmək hüququnu özündə saxlayırlar. Belə olan halda, hər hansı bir qrup AİHM-ə müraciət etməzdən əvvəl ölkədə mövcud olan bütün məhkəmə instansiyalarında öz imkanlarından  istifadə etməlidir ki, bu da çox zaman bir neçə il davam edir.

Qeydiyyatdan keçmiş müsəlman təşkilatları məscidlərə axundlar təyin edən, İslam təhsil müəssisələrini idarə edən, müntəzəm olaraq mərasimlərə nəzarət edən və hər il Məkkəyə həcc ziyarətini təşkil edən Sovet dövründən qalmış müftilik – Qafqaz Müsəlmanları İdarəsinə (QMİ) tabedirlər. Müsəlman dini qrupları DQİDK-da qeydiyyatdan keçməzdən əvvəl mütləq QMİ-dən təsdiq məktubu almalıdırlar. 30 iyun 2009-cu il tarixdə Milli Məclis tərəfindən təsdiq edilmiş Dini Azadlıq haqqında Qanuna edilmiş və Prezidentin fərmanı ilə qanun şəklinə salınmış dəyişiklik QMİ-yə "müvafiq icra orqanını məlumatlandırmaqla ruhaniləri aparıcı islam etiqadı institutlarına" təyin etmək səlahiyyətini vermişdir.

Dini etiqad azadlığı haqqında Qanuna əsasən siyasi partiyalar dini fəaliyyətlə məşğul ola bilməzlər. Dini rəhbərlər eyni zamanda həm dövlət idarəsində çalışa, həm də dini rəhbərlik edə bilməzlər, lakin bu müddəa dövlət məmurunun etiqad etmək hüququnu məhdudlaşdırmır. Dini obyektlər siyasi məqsədlər üçün istifadə edilə bilməz.

Dini təhsil icbari deyil və özəl olaraq maliyyələşdirilən, dövlət ibtidai və orta məktəblərində dini proqram yoxdur. Ali təhsil müəssisələrində tələbələr dini kurslara gedə bilərlər. QMİ xaricdə bəzi təlimləri maliyyələşdirir. Dini təhsil üçün dövlət tərəfindən dəstəklənən təlimlərdə iştirak etmək arzusunda olanlar DQİDK yaxud Təhsil Nazirliyindən icazə almalı yaxud qeydiyyata alınmalıdırlar.  Bundan başqa xaricdə hər hansı sahədə təhsil almaq üçün dövlət orqanlarından hər hansı icazə alınması tələb olunmur.

Hökumət aşağıdakı dini bayramları milli bayram elan edib: Qurban Bayramı və Ramazan.

Dini azadlığa qoyulan məhdudiyyətlər

Hökumət ümumiyyətlə dini azadlığa hüquqi məhdudiyyətlər qoymuşdur. Üzücü qeydiyyat prosedurlarında əlavə məhdudiyyətlər, qeydiyyata alınmamış dini fəaliyyətlər üzrə məhdudiyyətlər, əmlakla bağlı mübahisələr və bəzi yerlərdə ibadətə çağırışla bağlı şübhəli qadağalar sezilmişdir.  Qanunların məcburi şəkildə tətbiq edilməsi və interpretasiyasında yerli rəsmilərin nəzərəçarpacaq səlahiyyətləri vardır və məhdudiyyətlərlə bağlı xəbərlərin çoxu paytaxtdan kənar sahələrdən daxil olub. Məscid dolu olduğu zaman bəzi məscidlərdə binadan kənarda ibadətə imkan verilməmişdir.

Əvvəlki qeydiyyat statusundan asılı olmayaraq 2010-cu ildə bütün dini qrupların yenidən qeydiyyat tələbi bəzi qruplar tərəfindən asanlıqla icra edilib. Amma digər qrupların qeydiyyata alınmasından imtina edilmiş və bir çoxları qeyri-müəyyən vəziyyətdə qalmışlar. 2010-cu ilin may ayının ortalarına olan məlumata əsasən müraciət etmiş təxminən 800 qrupdan 335-i qeydiyyata alınmışdır. On icmanın, o cümlədən Yehovanın Şahidləri, Yeddinci Günün Adventistlərinin, Baptistlərin, Fatimeyi-Zəhra məscidinin və əsas etibarilə xarici rezidentlərdən ibarət qeyri-konfessial Protestant icması – Bakı Beynəlxalq Cəmiyyətinin qeydiyyata alınmasından imtina edilmişdir. Əliabadda əvvəlki 15 il qeydiyyata alınmış Baptist Kilsəsinin qeydiyyata alınmasından bu il imtina edilmişdir. DQİDK sonda Mədh Kilsəsini (baş kilsəsi İsveçdə yerləşən yevangelist kilsə) qeydiyyata almamış və icmanın  qeydiyyat sənədlərində etdiyi texniki səhvlərə istinad edilməsi iddia olunmuşdur.. Hesabat dövrünün sonunda Katolik Kilsəsi hələ də qeydiyyatla bağlı müraciətlərinə baxılması ilə bağlı  qərarı gözləməkdə idi.

Bakı yaxınlığında yerləşən Qaradağ rayonunun Müşviqabad qəsəbəsində yerləşən Sünni məscidinin imamı 2010-cu ilin may ayında dini azadlıq üzrə müvəkkillik edən Forum 18 QHT-yə xəbər verib ki, polis qeydiyyatın olmaması səbəbindən onun məscidini bağlamaqla hədələmişdir. Forum 18 həmçinin xəbər verib ki, polis eyni qeydiyyatın olmaması səbəbindən 2010-cu ilin 21 may tarixində Mehdiabaddakı məscidin bağlanması əmrini vermişdir.

DQİDK müraciətləri ilə bağlı yekun qərarı gözləyən dini qruplara müvəqqəti status verib. Amma bu müvəqqəti status icma liderləri adından viza təmin etmək və əmlakı icarəyə götürmək imkanı ilə bağlı ən azı bir icmaya maneə yaratmışdır. Məhz, qeydiyyatla bağlı qərarın həllini gözlədiyi səbəbindən Bakı Beynəlxalq

Cəmiyyətinə toplaşmaq icazəsi verilsə də, qeydiyyat şəhadətnaməsi olmadığı səbəbindən gömrük rəsmiləri icmanın pastoru üçün viza müraciətini dəstəkləməmişdir. Yerli rəsmilər şəhadətnamənin olmadığı halda icmanın dini liderlərinin əmlak icarəyə götürməsinə icazə vermir.

Əvvəlki hesabatlarda qeyd edildiyi kimi, qeydiyyat prosesi hökumətin arzuolunmaz hesab etdiyi dini qruplara qarşı istifadə etdiyi bir vasitə rolunu oynayır. Hökumətin diqqətli müşahidəsinə ən həssas qruplar bəziləri, bir qayda olaraq, İslam qrupları olmaqla qeyri-ənənəvi qruplardır. Təsirə məruz qalmış qruplardan bəzilərində dini təbliğat tətbiq edilir.

Rəsmi qeydiyyatı olmadan ibadət etməyi seçən qeydiyyatdan keçməmiş təşkilatlar qeyri-qanuni elan olunmaq və bağlanmaq, yaxud yerli hakimiyyət orqanları tərəfindən seçim əsasında təqibə məruz qalmaq təhlükəsilə üzləşirlər. Bunun nəticəsi olaraq onların fəaliyyəti çətin, bəzi hallarda isə qeyri-mümkün olur.

Baptist icması məlumat verib ki, polis Bakıdan şimalda yerləşən bir şəhərdə öz evində sitayiş edənləri toplayan pastora fəaliyyəti dayandırmasını demiş və sonra onu polis məntəqəsinə çağırmışdır. Həmin pastor əvvəllər 2007-ci ildə polisə sataşmaq ittihamı ilə həbs edilmiş və 2008-ci ilin mart ayında azad edilmişdir.

Forum 18 2010-cu il aprel ayının 7-də məlumat verib ki, Bakı şəhərindəki Baptist icmasının qeydiyyat müraciəti rədd edildikdən sonra 2010-cu ilin mart ayında ora dörd səfər edilmiş və icma qanunsuz ibadətlə bağlı ittiham edilmişdir.

19 fevral 2010-cu il tarixdə müstəqil xəbər agentliyi olan Azərbaycan Mətbuat Agentliyi (APA) xəbər verib ki, Məşədi Dadaş məscidinin rəhbəri DQİDK-dən ona telefon zəngi edildiyini iddia edib, belə ki, telefon zəngində məsciddən kənarda küçədə ibadətin qadağan edilməsi ilə bağlı icmaya xəbərdarlıq edilib. Səsucaldanlardan istifadə etməklə ibadətə çağırışa qoyulan qadağanın 2009-cu ildə Şəkidə və 2009-cu ilin əvvəlində Gəncədə tətbiq edildiyi barədə məlumat olmuşdur. DQİDK ibadətə çağırışla bağlı hər hansı qadağanın olduğunu inkar edib.

Qanun DQİDK-nın icazəsilə dini ədəbiyyatın nəşrinə və yayılmasına icazə verir, lakin hakimiyyət orqanları seçim əsasında bəzi dini materialların idxalını və yayılmasını məhdudlaşdırmışdır. Dini ədəbiyyatın idxalı üçün icazənin alınması uzun sürən proses olaraq qalır və müsəlman və xristian qrupları prosesin üzücü olduğundan şikayət edirlər. Hesabat dövründə ölkənin bir sıra ərazilərində bir çox həm İslam, həm də qeyri-İslam dinlərin radikal olduğu iddia edilən ədəbiyyatın polis tərəfindən müsadirə olunması halları baş vermişdir . DQİDK bildirmişdir ki,

ölkəyə gətirilən bütün dini ədəbiyyat dini material kimi ölkəyə daxil edilməsinə icazə verilməsi üçün mütləq DQİDK-nın ekspert baxışından keçməlidir və bu, materialların həcmindən asılı olaraq vaxt aparan proses ola bilər. 2010-cu il mart ayının 11-də ölkəninTrend News agentliyi xəbər verib ki, 2009-cu ildə 2,332 ədəd dini ədəbiyyat məzmunun ekspert yoxlaması üçün DQİDK-ə göndərilib və bunlardan 380 ədədi "ziyanverici" hesab edilərək onların idxal yaxud ixracı qadağan edilmişdir.

Dini televiziyanın yayımlanması və metro stansiyalarında dini ədəbiyyatın satılması daxil olmaqla bir çox İslam fəaliyyətləri üzərində nəzarət qüvvədədir.

Ölkənin qalan bütün ərazilərində, əvvəlki hesabatlarda olduğu kimi, hakimiyyət orqanları pasport və digər rəsmi şəxsiyyəti təsdiq edən sənədlər üçün çəkilən şəkillərdə müsəlman qadınların baş örtüyü geyinməsinə icazə verməmişlər.

## Dini azadlığın pozulması

Dini azadlığın pozulması ilə bağlı ayrı-ayrı hallar olmuşdur, buraya məscidlərin dağıdılması yaxud bağlanması, dini icmalara reydlər, ədəbiyyatın müsadirəsi və həbs halları daxildir. Hədəfdə çox vaxt Yehovanın Şahidləri və icazəsi olmayan İslam təşkilatlarıdır.

20 May 2010-cu ildə Forum 18 məlumat verib ki, müsəlman ilahiyyatçısı Səid Nursinin bir davamçısı əşyalarının arasında dini ədəbiyyat tapılan zaman Naxçıvan aeroportunda həbs edilib. Verilən məlumata görə daha beş ibadət edən şəxs evlərində həbs edilmiş, bəziləri tez bir zamanda azad edilsə də, digərləri üç gün izolyatorda saxlanmışdır.

Trend News 2010-cu ilin mayında xəbər verib ki, evində qanunsuz dini məktəb təşkil etdiyinə görə Lənkəranda bir nəfərin evinə reyd edilmiş və kitablar əlindən alınmışdır.

Forum 18 xəbər verib ki, Zaqatala rayonunun ərazisindəki Əliabad kəndində qeydiyyata alınmamış Baptist ev kilsəsinin pastoruna 30 aprel 2010-cu ildə xəbərdarlıq edilib ki, bu icma toplaşmağa davam edərsə, onun "qanunla problemləri" olacaqdır.

APA-ya görə, 29 aprel 2010-cu il tarixdə Milli Təhlükəsizlik Nazirliyi və yerli polis zabitləri lazımi qeydiyyat olmadan dini "Süleymançılar" sektasını təşviq etdiklərinə görə dörd türk vətəndaşını həbs edib.

Yehovanın Şahidləri bir neçə halda ictimaiyyət arasında dini ədəbiyyatın yayılmasına görə saxlanma və cərimələrlə bağlı məlumat verib. Verilən məlumata görə bu hadisələr 5 may 2010-cu il tarixdə Sumqayıtda və 27 aprel 2010-cu il tarixdə Ağstafada baş verib. Hər iki halda kilsə üzvlərinin bir neçə saatdan sonra azad edildiyi və dini ədəbiyyatın yayılmasına görə $250 (200 AZN) cərimə edildiyi bildirilir.

Yehovanın Şahidləri xəbər verib ki, 25 aprel 2010-cu il tarixdə Gürcüstanda dini toplantıdan qayıdan böyük sayda kilsə üzvləri gecə saxlanılmış və Qazaxda sərhəddə onların ədəbiyyatları əllərindən alınmışdır.

12 mart 2010-cu ildə Forum 18 xəbər verib ki, Yehovanın Şahidlərinin İncilləri müsadirə edilmiş və dövlət icazəsi olmadan dini ədəbiyyatın paylanması və dini inancları haqqında qonşularla söhbət aparmaları səbəbindən üç həftəlik əmək haqqına bərabər cərimə olunmuşlar.

16 fevral 2010-cu ildə səfirliyin rəsmiləri öyrənib ki, Yehovanın Şahidlərindən iki nəfər qapı-qapı gəzərək dini təbliğat apararkən kimsə polisə zəng edib. Etiqad sahibləri polis məntəqəsinə aparılmış, amma onlar sənədlərə imza atmaqdan imtina etmişlər.  Verilən xəbərə görə polis bir neçə saatdan sonra onları buraxmazdan əvvəl onlar haqqında şəxsi məlumatı  qeyd etmişdir.

13 fevral 2010-cu ildə Məhəmməd Peyğəmbərin ölümünün ildönümündə təxminən 100 nəfər Şəhidlər Xiyabanına tərəf addımlamaq məqsədilə Bakının Nizami rayonunda toplaşmışdır. Hadisə zamanı təxminən 10 nəfərin saxlandığı və bir neçə nəfərin yaralandığı xəbər verilib.  Zorakılığın ilk olaraq Şəhidlər Xiyabanına tərəf addımlayan şəxslər yaxud onlara qarşı duran polislər tərəfindən törədildiyi ilə bağlı məlumatlar fərqli olmuşdur.

26 yanvar 2010-cu ildə səlahiyyətli orqanlar Sumqayıtda bir evdə toplaşmış Müsəlman Nurçu azlıq hərəkatının 80 üzvünü həbs etmişdir. Polis mənzildən 148 ədəd qadağan edilmiş kitab müsadirə etmişdir.

28 dekabr 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının  Bənənyar kəndində İslam Aşura mərasimini həyata keçirən 10 nəfər həbs edilmişdir. Həbs edilənlərin sayı ilə bağlı məlumatlar müxtəlifdir, amma müxtəlif xəbər buraxılışlarında döyülmə və sorğu-sual halları ilə bağlı bir neçə bəyanatlar verilmişdir. Sonrakı məlumatlarda 5 yanvar 2010-cu il tarixdə 200-ə qədər insanın həbs edildiyi və müqavimət göstərənlərin döyüldüyü bildirilir.

29 noyabr 2009-cu ildə polis dini toplantını tərk edən Yehova Şahidlərinin 81 yaşlı üzvünü saxlayaraq döymüşdür. Polis zabiti onu avtobus dayanacağında həbs etmiş, onu ictimai kafeyə gətirərək dini kitablar olan çantasını müsadirə etmiş və döymüşdür. Forum 18 xəbər verir ki, onun fahişə olması ilə bağlı ittiham irəli sürülmüş və narkotik axtarışı üçün tamamilə soyundurulmuşdur. Sonra digər polis zabitləri onu polis məntəqəsinə aparmış və məcburi şəkildə oxuya bilmədiyi ifadəni imzalamağa məcbur etmişlər. O, Baş Prokurora şikayət ərizəsi ilə müraciət etmişdir, amma onun bədən xəsarətini göstərən şəklin olmasına baxmayaraq rəsmi tibb eksperti onunla görüşməkdən imtina etmişdir.

APA xəbər verib ki, 12 avqust 2009-cu ildə Yehova Şahidlərinin naməlum sayda üzvü dini etiqadı təbliğ etdiklərinə görə Qax rayonunda yerli polis tərəfindən həbs edilib. Təxminən 60 broşür və 7 kitabın müsadirə edildiyi bildirilir. Həbs olunanlar sonradan azad edilib.

Qanun açıq şəkildə xaricilər tərəfindən dinin təbliğ olunmasını qadağan edir və rəsmilər ciddi şəkildə bu qadağanı həyata keçirmişlər. 2009-cu ilin sentyabr ayında hüquq-mühafizə orqanları evində dini tədbirlər təşkil etdiyinə görə şimalda yerləşən Yalama şəhərindən bir nəfəri cərimələmiş və deportasiya etmişdir. Baptist kilsəsinə aid olan həmin şəxsin üzərində Rusiya passportu olmuşdur. Yehova Şahidləri həmçinin xəbər verib ki, Gürcüstan vətəndaşı olan iki üzvləri 2009-cu ilin iyul ayında həbs edilərək deportasiya olunmuşdur.

Səlahiyyətli orqanların əvvəlki hesabat dövründə bağladığı bir sıra məscid hələ də bağlıdır.

1 May 2010-cu ildə Ali Məhkəmə Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində qismən inşa edilmiş Fatimeyi-Zəhra Şiə məscidinin dağıdılmasına icazə verən aşağı məhkəmələrin qərarlarını təsdiq etmişdir. Amma 14 may 2010-cu il tarixdə prezidentin bu işə müdaxilə etdiyi və məscidin səlahiyyətini QMİ-yə ötürdüyü xəbər verilir, bunun məscidin dağıdılmaqdan qorunması məqsədilə edildiyi güman olunur. DQİDK bundan əvvəl icmadan daxil olmuş qeydiyyat müraciətinə rədd cavabı vermişdir və hesabat dövrünün sonuna icmanın statusu məlum deyildi.

2009-cu ildə müxtəlif səbəblərdən bir neçə məscid bağlanmış yaxud dağıdılmışdır. Türk səfirliyindən bildirilib ki, Türkiyənin dəstəyi ilə inşa edilmiş Şəhidlər Məscidi təmir üçün bağlanmış və hazırda bağlı olaraq qalmaqdadır. Səlahiyyətli orqanlar güman edilən təhlükəsizlik səbəbindən Neft Daşlarındakı qəsəbədə yerləşən

məscidi bağlayıb. 26 aprel 2009-cu ildə polis Yasamal rayonu Dini İcmasının Məhəmməd Peyğəmbər məscidini dağıtmışdır.

Mədh Kilsəsi icması hökumət maraqları ilə əmlak mübahisəsinə dair çıxılmaz vəziyyətdə qalmaqdadır, belə ki, məbədin sahəsinin üçdə biri, o cümlədən kilsənin inşa edildiyi sahə müsadirə edilmişdir. İcma tərəfindən quraşdırılmış müvəqqəti çadır 10 yanvar 2010-cu il tarixdə tamamilə yanmışdır; yanğının səbəbi hələ də məlum deyildir. 4 mart 2010-cu ildə icma çadırın yenidən quraşdırılması ilə bağlı vəsatət qaldırmış və Bakı şəhərinin icra hakimiyyətindən müraciətə rədd cavabı verilmişdir. Amma sonradan icmadan bildiriblər ki, kompensasiya kimi onlara fərqli məkanda torpaq sahəsi təklif edilmişdir.

19 oktyabr 2009-cu ildə Qaynar.info xəbər verib ki, yerli icra hakimiyyəti bərpa işlərinin aparılması məqsədilə Mehdiabad məscidini bağlayıb. 2009-cu ilin sentyabr ayında səlahiyyətli orqanlar Gəncədə yerli əhali arasında "Alban məbədi" (Alban dedikdə bu günkü Albaniyaya deyil, Qafqazın qədim insanlarına istinad edilir) kimi tanınan Sünnü Cümə məscidini qeydiyyat tələblərinə riayət edə bilmədiyi səbəbindən bağlamışlar.

18 sentyabr 2009-cu il tarixdə Azadlıq xəbər buraxılışı bildirib ki, səlahiyyətli orqanlar Gəncə şəhərində dörd məscidi bağlamış və dini materialları müsadirə etmişdir.

Əbu-Bəkr məscidinin açılması ilə bağlı dəfələrlə məscid camaatının çağırışlarına və məhkəmə çəkişmələrinə baxmayaraq, məscid hökumət tərəfindən bağlı saxlanılmışdır. 2008-ci il, avqustun 17-də Bakıdakı Əbu-Bəkr məscidində törədilmiş partlayış nəticəsində iki nəfər həlak olmuş və dini icmanın rəhbəri də daxil olmaqla 11 nəfər yaralanmışdır. Icmanın rəhbəri sonradan sağalmışdır. Hadisədən dərhal sonra hakimiyyət orqanları onun araşdırılması ilə əlaqədar hər cümə günü orta hesabla 7000 möminin ibadət etdiyi məscidi bağladılar və bütün ölkədə möminlərin məscidlərdən kənarda toplaşmalarını qadağan etdilər. Hakimiyyət orqanları sonradan hücumun, rəhbəri 2008-ci ilin sentyabrında Rusiyanın Dağıstan Respublikasında Rusiya federal qüvvələri tərəfindən öldürülmüş İlqar Mollaçıyev olan Meşə Qardaşları radikal qruplaşması tərəfindən həyata keçirildiyini bəyan etdi. Bir neçə məhkəmə müraciətlərinə və iddialarına baxmayaraq, məscid hökumətin "davam etdirilən araşdırmalar" adlandırdığı müddət ərzində bağlı qalmışdır. Öz növbəsində DQİDK Əbu-Bəkr Məscidinin bağlanması ilə bağlı hökumətin təhlükəsizlik orqanlarına müraciət edilməsini tövsiyə etmiş, eyni zamanda icmanın düzgün qaydada qeydiyyatdan keçmədiyini bəyan etmişdir. Bundan əlavə, DQİDK Əbu-Bəkr Məscidinin möminlərinin

Azərbaycanın qeydiyyatdan keçmiş digər məscidlərdə ibadət etməkdə sərbəst olduqlarını bildirmişdir.

Ölkənin qalan hissəsində hüquq-mühafizə orqanlarının yerli rəsmiləri arabir dini mərasimlərin monitorinqini aparmışlar və axtarışlar üçün bəzi mömin xristian və müsəlmanların seçildiyi bildirilir.

Yerli insan hüquqları müşahidəçiləri hökuməti icbari hərbi xidmətə alternativ mülki xidməti təşkil etməməkdə ittiham etmiş və Yehova Şahidləri icmasının üzvləri iddia etmişlər ki, Avropa İnsan Hüquqları Konvensiyasını imzalamaqla ölkə icbari hərbi xidmətə alternativ mülki xidməti təşkil etməyə borcludur. Verilən məlumata görə, Hökumət rəsmiləri həll olunmamış DQ münaqişəsinə görə qrupun hərbi xidmətlə bağlı mövqeyini "qorxaq" və "ictimai əxlaqa zidd" kimi qiymətləndirmişlər.

15 dekabr 2009-cu ildə Forum 18 Yehova Şahidləri qrupunun üzvünün hərbi xidmətdən şüurlu şəkildə imtina etməsi ilə bağlı ittihamnamənin ləğv edilməsinə dair müraciətinin uğursuz olduğu ilə bağlı xəbər verib.

Hökumət DQ regionu üzərində nəzarəti həyata keçirməyib. Qeyri-hökumət təşkilatları tərəfindən bəzi məhdudiyyətlər və pozulma halları ilə bağlı məlumatlar daxil olub.

DQ-kı Yehovanın Şahidləri bildirib ki, qeydiyyatla bağlı onların müraciətinə 2009-cu ilin avqust ayında rədd cavabı verilib. Onlar sonradan 2010-cu ilin mart və aprel aylarında toplantılara reydlər və həbslər barədə məlumat veriblər.

27 aprel 2010-cu ildə Forum 18 DQ ərazisində dörd nəfər şəxsin qeydiyyatın olmadığı şəraitdə dini sitayişə görə cərimələndiyini xəbər verib, belə ki, onların qeydiyyata alınmasına rədd cavabı verilib.  Forum 18 həmçinin 2010-cu ilin fevral və aprel ayları arasında DQ-ğın Protestant icmalarına səkkiz dəfə reyd olduğunu bildirib.

Dinin məcburi dəyişdirilməsi

Dinin məcburi şəkildə dəyişdirilməsi ilə bağlı xəbərlər alınmamışdır.

Din azadlığına riayət olunması ilə  bağlı irəliləyiş  və müsbət dəyişikliklər.

2009-cu ilin iyul ayında QMRİ-nin baş ofisinin yerləşdiyi yeni Təzə Pir məscidinin

rəsmi açılışı olmuşdur. Bu, ölkədə ən iri məscidlərdən biridir və bir çox insanların sitayiş etməsi üçün imkan yaradır, dəfn mərasimləri və digər dini ayinlər üçün məkan təmin edir.

2007-ci ilin noyabrında Mədəniyyət Nazirlərinin Tripolidə keçirilmiş Beşinci İslam Konfransında Bakı 2009-cu ilin İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir. Bu, şəhərdə və Abşeron yarımadasında bir neçə məscidin təmir olunmasına təkan vermişdir.

2010-cu ilin aprel ayında ölkədə beynəlxalq dini konfrans keçirilmiş, konfransda erməni Katolikosu da iştirak etmişdir, bu, Azərbaycan və Ermənistan arasında uzun müddət davam edən münaqişə şəraitində əhəmiyyətli inkişafdır.

Bölmə III. Dini azadlığa dair ictimai münasibətin vəziyyəti

Dini mənsubiyyətinə, inancına və etiqadına görə bəzi hallarda ictimai ayrı-seçkiliyin olduğu barədə məlumat verilmişdir. Digər dini qəbul etmiş müsəlman vətəndaşlarına qarşı geniş yayılmış mənfi fikir və öz dinini yayan qruplara, konkret olaraq yevangelist xristianlara və digər missioner qruplara qarşı düşmənçilik münasibəti formalaşmışdır.

12 mart 2010-cu ildə Forum 18 bildirib ki, müaxlifət qəzetində Baptistlərin digər məsələlərlə yanaşı guya başqa ölkələrin casusları olması ilə bağlı çap edilmiş məqalə nəticəsində polis sənədləri yoxlamaq və pastordan müsahibə almaq üçün kilsəyə səfər edib.

Hesabat dövründə qəzetlərdə Sələfilik və xristian missionerləri ilə bağlı tənqidi məqalələr çap edilib. Ümumilikdə cəmiyyət xarici müsəlman missioner fəaliyyətinə qarşı (əsas etibarilə İran və Sələfi) mənfi münasibət sərgiləyir, çoxları bunun siyasi İslamın yayılması cəhdi və bu baxımdan da sabitlik və sülhə təhlükə kimi qəbul edir. KİV hökumətin qanunsuz fəaliyyətlərlə məşğul olduğunu iddia etdiyi bəzi müsəlman icmalarını hədəfə alıb.

2008-ci ildən əvvəlki hesabatlardan fərqli olaraq anti-semitist hadisələrlə bağlı heç bir məlumat olmayıb.

Bölmə IV. ABŞ Hökumətinin siyasəti

ABŞ səfirliyinin rəsmiləri müsəlman, xristian və yəhudi dini liderləri ilə sıx əlaqədə olmuş və dini azadlığın monitorinqini aparmaq məqsədilə müntəzəm

olaraq həm qeydiyyata alınmış, həm də alınmamış dini qruplarla görüşmüşlər. Səfirlik işçiləri həmçinin din azadlığı məsələləri ilə məşğul olan QHT ilə sıx əlaqə saxlamışdır.

Hesabatın əhatə etdiyi dövr ərzində səfirlik nümayəndələri qeydiyyat prosesi və "qeyri-ənənəvi" dini qruplara qarşı rəsmi münasibətlə bağlı narahatlıqlarını, eləcə də mömin müsəlmanlara qarşı təqiblərlə bağlı narahatlıqlarını DQİDK-ya çatdırmışlar. Səfirlik həmçinin hökumətlə müzakirələrində və mətbuatda dini azadlıqla bağlı rəsmi öhdəliklərin səviyyəsi ilə bağlı narahatlıqlarını ifadə etmişlər.